# Doğulduğu torpağa tələsənlər...

Mən Bəturə İmanova 1965-ci ildə Laçın rayonunun Fərraş kəndində anadan olmuşam. O kənddə böyüyüb, boya-başa çatmışam. Uşaqlığım, gəncliyim o kənddə keçib. O qədər xatirələrim var ki, doğulduğum kəndlə bağlı. Hətta yuxularımda belə özümü gənc görürəm kəndimizdə, evimizdə..

1992-ci ildə mənfur erməni qatilləri bizi el-obamızı, kəndimizi tərk etmək məcburiyyətində qoydular, yurd-yuvamızdan didərgin saldılar. Heç vaxt unutmaram o günləri. Qonşu Meşəli kəndinə od vurdular bir gecədə. Hər kəsi qətlə yetirdilər, sonra da evləri yandırdılar içindəki cansız canlarla birgə...O qədər qəddarlıq görməmişdim mən o yaşıma qədər.

Bacım Xocalıda yaşayırdı, 5 övladı var idi. Qızlarını Ağdama qohum evinə yola salan ana, 2 oğlu ilə birlikdə dəhşətli atışmaların arasından çıxıb meşə yolu ilə kəndi tərk edir. 3 gün ac-susuz yol gedən ana soyuğa, aclığa dözə bilmir, taqətdən düşür və oradaca həyatı sönür...Donmuş vəziyyətdə Ağdama çatan uşaqları isə əsgərlər görür və Bakıya yola sala bilirlər.

Başımıza bu cür fəlakətlər, müsibətlər gətirən düşməni bağışlamaq olarmı?!

Biz kəndimizi tərk edəndən sonra Qəbələyə gəldik. Sağ olsunlar, bizi yaxşı qarşıladılar, bizə sığınacaq verdilər. Qəbələ camaatından çox hörmət görmüşük, çox razıyıq. Amma buna baxmayaraq, 28 ildir vətən həsrəti çəkirik. Keçən 28 ildə bir dəfə də olsun torpaqlara qayıtmaqla bağlı inamımız, ümidimiz itməyib. İnanmışıq ki, bir gün yurdumuza dönəcəyik. Şükür ki, o günlər yaxınlaşır...

Əhd etmişəm, ayaqyalın gedecəyəm kəndimizə, dizin-dizin sürünəcəyəm. Sənə can qatmağa gəlmişəm Vətən, deyəcəyəm. Qırxqız dağının ətəyində yerləşən kəndimizin soyuq bulaqlarından bir ovuc su içib illərin ürəyimdəki torpaq, həsrət yanğısını söndürəcəyəm....

Allah Prezidentimizə, qəhrəman Ordumuza qüvvət versin, Füzuli, Cəbrayıl, Qubadlı sakinləri kimi, qulağı səsdə olan bizləri də zəfər xəbəri ilə sevindirsinlər tezliklə!

**Bəturə İMANOVA,**
**Laçın rayonu.**

# Ata-baba yurdunun sakinləri olacaq

Biz isti ocağımızdan didərgin düşəndə tezliklə yenidən qayıdacağımızı düşünürdük. İnana bilmirdik ki, varımızı-yoxumuzu, odumuzu-ocağımızı, doğulub boya-başa çatdığımız torpağı yadlara buraxacağıq. İllərlə həsrətdə qovrulduq, mənəvi əzabın ağrısı həyatımızda başqa acıları üstələyirdi. Didərgin, köçkün, öz evindən qaçqın düşmək bizi həmişə qəlbən ağrıtmışdır.

Adımızın əvvəlində qaçqın, köçkün ayamaları ilə tanıdılmanın bizə necə təsir etdiyini düşünmək belə ağırdır.

İllər keçdikcə arzularımızın, istəklərimizin reallaşmasına inamım azalırdı. Öz evimizi, doğulub boya-başa çatdığımız o torpaqları, kəndimizi, rayonumuzu röyalarımda görürdüm. Sanki o gözəl təbiət məni səsləyirdi, o torpaq məni çəkirdi özünə. Heç ürəkdən gülə bilmirdim. Həsrət yükü çiyinlərimdə sal qaya kimi məni əyirdi. Bizə göstərilən qayğı məni ovutmur, həyatımı nizamlaya bilmirəm...

Övladlarıma həmişə baba, ata yurdlarından danışıram. Bu tanıtmam, söhbətlərim onlara sənədli film təsiri bağışlayır.

Son vaxtlar göydə uçan quşlar da sanki o yurddan uçub gəlir, doğma torpaqlarımızın qoxusunu külək mənə gətirirdi...

Aprel (2016) və iyul (2020) hadisələri torpaqlarımızın alınması və işğaldan təmizlənməsinə inamımızı artırdı. Sentyabr ayının sonunda başlanan müharibə - erməni işğalçılarının həmişə olduğu kimi atəşkəsi pozması, yeni iddiaları və dövlətimiz qarşısına şərtlər qoyması Prezident, Ali Baş Komandan İlham Əliyevin onlara lazımi səviyyədə cavab verməsi ilə nəticələndi. Sentyabrın 27-dən etibarən ordumuz Ali Baş Komandanımızın rəhbərliyi ilə torpaqlarımızı günbəgün düşmən tapdağından azad edir. Hər gün cəbhədən işğaldan azad olan bölgələrimiz haqqında xoş xəbərlər eşidirik.

Ana yurdum - Füzulinin işğaldan azad olunması mənə həyat, ömür bəxş etdi yenidən. 27 ildir yurd həsrətilə için-için qovrulurduq... Sevincdən sanki dəli olmuşdum: gah hönkürüb ağlayırdım, gah gülürdüm, qaçmaq istəyirdim ta Füzuliyə kimi... Ürəyim də gülürdü; ürək döyüntülərim tezləşdikcə sanırdım ki, "gülüşünün təsiri"dir.

Öz obamıza qayıdacaq, ocağımızı çatacağıq. Daha yaraşıqlı evlər tikəcək, obamıza yeni həyat bəxş edəcəyik. Bizim torpaqlarımızın şəhid ruhlarının narahatlığına son qoyulacaq! O torpaqlar yenə əsrarəngiz gözəllikləri və qorxmaz igidləri ilə tanınacaq. Övladlarımız ata-ana, baba yurdlarının sakinləri olacaqlar!

Sağ ol, Ali Baş Komandanım! Sağ ol, qüdrətli Ordum! Sağ olun, xalqımın igid oğulları, müsəlləh əsgərləri!

Mən sizə minnətdaram!

**Solmaz QULİYEVA,**
**Füzuli rayonu.**

# *Baş Prokurorluq:* Ermənistan ordusu Oğuz-Qəbələ-Bakı su kəmərini hədəfə alaraq raket atıb

Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyalarını və onların Əlavə Protokollarını, habelə, elan olunmuş humanitar atəşkəs rejiminin tələblərini pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini və strateji obyektləri raket və ağır artilleriya zərbələrinə məruz qoymaqda davam edir.



Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 22-də səhər saatlarından başlayaraq Ermənistan silahlı birləşmələri mühüm dağıntılara səbəb ola bilən müharibə üsullarından istifadə edərək, cəbhə zonasından 150 kilometrdən artıq uzaqlıqda yerləşən Azərbaycan Respublikasının Qəbələ, Kürdəmir və Siyəzən rayonlarına "Skad" ballistik taktiki raketlər atıb.

Raket zərbələri nəticəsində Qəbələ rayon sakini 2003-cü il təvəllüdlü Əmirbəyov Murad Ceyhun oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alıb, kənd ərazisində 5 evə ciddi ziyan dəyib.

Həmçinin, düşmən silahlı qüvvələri Abşeron yarımadasını içməli su ilə təchiz edən və ölkəmiz üçün xüsusi strateji əhəmiyyətə malik Oğuz-Qəbələ-Bakı su kəmərini hədəfə alaraq raket atıb. Lakin raketin Azərbaycan Ordumuzun Hava Hücumundan Müdafiə qüvvələri tərəfindən zərərsizləşdirilməsi nəticəsində onun hissələri su kəmərinin yaxınlığına düşüb.

Bununla bağlı prokurorluq əməkdaşları tərəfindən hadisə yerlərində zəruri istintaq tədbirləri və prosessual hərəkətlər həyata keçirilir.

**AZƏRTAC.**

# Ermənistan ordusunun Bərdəni raket atəşinə tutması

Ermənistan ordusunun Bərdə şəhərini raket atəşinə tutması nəticəsində həlak olan mülki şəxslərin sayı 21-ə çatıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Baş Prokurorluğu məlumat yayıb.

Məlumatda bildirilib ki, oktyabrın 28-də saat 13 radələrində Ermənistan silahlı qüvvələri tərəfindən Bərdə şəhərinin dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin yerləşdiyi əraziyə beynəlxalq hüquqla qadağan olunmuş kaset bombalarından istifadə edilməklə zərbələr endirilməsi nəticəsində 21 nəfər həlak olub, 70-ə yaxın şəxs isə yaralanıb. Şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

Bundan başqa, təcavüzkar Ermənistan silahlı qüvvələri tərəfindən oktyabrın 27-də saat 16 radələrində Bərdə rayonunun Qarayusifli kəndinin ağır artilleriyadan atəs?ə tutulması nəticəsində xəsarət almış daha bir dinc sakin müalicə olunduğu xəstəxanada aldığı xəsarətlər səbəbindən vəfat edib. Bununla da oktyabrın 27-də Ermənistan silahlı qüvvələri tərəfindən törədilmiş cinayətlər nəticəsində həlak olanların sayı 5-ə çatıb.

Hazırda prokurorluq əməkdaşları tərəfindən mövcud səraitdə mümkün olan bütün istintaq tədbirləri həyata keçirilməklə zərərçəkmiş şəxslərin siyahısının dəqiqləşdirilməsi üzrə işlər aparılır.

**«Azərbaycan»**

# "İti qovan" PUA-lar hansı üstünlüklərə malikdir?

Müdafiə Sənayesi Nazirliyinin müəssisələri yeni növ zərbə tipli, daha böyük dağıdıcı gücə malik "İti qovan" pilotsuz uçuş aparatlarının (PUA) seriyalı istehsalına başlayıblar. Ali Baş Komandan İlham Əliyevin tarixə düşən bu ifadəsi PUA-ların qanadları üzərinə yazılıb. Hazırda "İti qovan" PUA-ları Azərbaycan Ordusunun istifadəsindədir.

Hərbi ekspert Rəşad Süleymanov deyir ki, Azərbaycan 2011-ci ildən pilotsuz uçuş aparatlarının istehsalına başlayıb.

Əvvəllər həmin PUA-nın adı kamikadze "Zərbə" olub. Müdafiə Sənayesi Nazirliyinin müəssisəsində daha sonra həmin silaha "iti qovan" adı verilərək seriyalı istehsalına başlanıb.

Qeyd edək ki, "iti qovan" adı verilən kamikadze PUA 5 saata qədər havada qala bilir.

Ekspert deyir ki, qurğuda xüsusi mini optik izləmə kamerası yerləşdirilib. Aparat xüsusi elektron mühafizə sisteminə malik olmaqla, elektron maneə vasitələrinə qarşı dayanıqlıdır. Peyk GPS əlaqəsi itən zaman aparat sərbəst döyüş tapşırığını yerinə yetirməyə qadirdir. Bundan başqa "iti qovan"ın daha bir neçə üstünlükləri də var.

Qeyd edək ki, həmin pualar Silahlı Qüvvələrin arsenalında var və Ermənistan ordusunun texnika və canlı qüvvəsinin məhv edilməsində müstəsna rol oynayır.

Azərbaycan "İti qovan" PUA-larının seriyalı istehsalına başladı

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin şəxsi təşəbbüsü ilə 2005-ci ildə yaradılmış Müdafiə Sənayesi Nazirliyinin birlik və müəssisələri Azərbaycan Ordusunu silah və sursatla fasiləsiz iş rejimində təmin edir.

"Report" xəbər verir ki, nazirliyin mütəxəssisləri hərbçilərlə birlikdə yeni tipli silah və döyüş sursatlarının real döyüş şəraitində sınaqlarını keçirirlər.

Müdafiə Sənayesi Nazirliyinin müəssisələri yeni növ zərbə tipli, daha böyük dağıdıcı gücə malik "İti qovan" Pilotsuz Uçuş aparatlarının (PUA) seriyalı istehsalına başlayıblar. Ali Baş Komandan İlham Əliyevin tarixə düşən bu ifadəsi PUA-ların qanadları üzərinə yazılıb.

Hazırda "İti qovan" PUA-ları Azərbaycan Ordusunun istifadəsindədir.

**Düşmənin raketlərini göydə vuran "Barak-8": xarakteristikası**

Barak-8 ("İldırım") zenit-raket kompleksi (ZRK) İsrailin "Rafael" şirkəti (Rafael Advanced Defense Systems Ltd. ) tərəfindən istehsal edilir. ZRK "Barak-1" xəttinin davamı olaraq hazırlanıb, yer və dəniz platformaları üçün iki versiyası mövcuddur. ZRK-nin yaradılmasını İsrail və Hindistan birgə həyata keçirib və ilk xarici istifadəçisi də məhz Hindistandır.

Zenit-raket kompleksinin istehsalçısı İsrailin "Rafael" şirkəti olsa da, kompleksin nəzarət-müşahidə radarı Azərbaycanla sıx silah alışı üzrə əməkdaşlıq edən, İsrailin əsas dövlət hərbi sənaye müəssisəsi olan "Israel Aerospace Industries (IAI)" holdinqinə daxil olan "Elta Systems" (radarları istehsal edir) tərəfindən istehsal olunur. Bəzi sifarişlərdə kompleksə "Elta Systems" şirkətinin istehsalı olan EL/M-2080 "Gren Pine" radarı daxil edilib.

"Barak-8" Azərbaycanın satın aldığı "Dəmir Qübbə" (İron Dome) kompleksinin əsas elementidir. Onu da qeyd edək ki, İsrail versiyasında "Dəmir Qübbə" əsasən 122 və 155 mm-lik "yer-yer" tipli raketlərə qarşı tətbiq edildiyi halda, Azərbaycanın əldə etdiyi sistem bunun əksinə - hava hücumundan müdafiə üçün nəzərdə tutulur. Yəni düşmənin "Qrad" və bu tip raketlərinə qarşı deyil, operativ-taktiki raketlərinə və hava vasitələrinə qarşı.

**Barak-8 ZRK**

"Barak-8" ZRK-nin atış mənzili 90 km, "Barak-8ER" konfiqurasiyasınınkı isə 150 kilometrə yaxın, hədəfi məhv etmə yüksəkliyi isə 16 000 metrə yaxındır. Raketin uzunluğu 4.5 metr, diametri 0.225 m, ümumi ağırlığı 275 kq, döyüş başlığı 60 kq təşkil edir. Yüksək manevr qabiliyyətinə malik "Barak 8" iki pilləli raket mühərrikinə sahibdir və şaquli atışla buraxılır. Raket aktiv arayıcı başlıq (RF/infraqırmızı) sayəsində hədəfə yönəlir və sürəti 2 macdır (680 metr/saniyə).

"Barak-8" ZRK gəmi əleyhinə raketlərə, supersonik raketlərə, ballistik raketlərə, təyyarə, helikopter, PUA kimi hava təhdidlərinə qarşı nəzərdə tutulur.